- **Bazarlara çıxışın yaxşılaşdırılması**

  - sərgilərdə iştiraka dəstək (yerli və xarici ölkələrdə olmaqla) göstərir
  - ticarət şəbəkələrinə çıxışa dəstək olur
  - onlayn ticarət portalı (www.kobmarket.az)

- **Maliyyəyə çıxışın yaxşılaşdırılması**

  - KOB-ların təhsil, elm, tədqiqat və dəstək layihələrinə qrant ayırır
  - daxili bazar araşdırmasının aparılmasını maliyyələşdirir
  -mikro və kiçik sahibkarlara “Startap” şəhadətnaməsi verir
  -dövlətin mövcud maliyyə alətləri barədə KOB subyektlərini məlumatlandırır və onlara çıxışa dəstək olur.

Bakı şəhəri, Ziya Bünyadov prospekti, 38C, 1969-cu məhəllə

(+99412) 4040401

Çağrı mərkəzi 131

info@smb.gov.az

**KOB inkişaf mərkəzləri**

**KOB evləri**

**KOB dostu ofisləri**

KOBİA

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi

www.smb.gov.az

## YARADILMASI

Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2017-ci il tarixli Fərmanı ilə yaradılıb. Dövlət başçısının 26 iyun 2018-ci il tarixli Fərmanı ilə Agentliyin nizamnaməsi və strukturu təsdiq edilib.

## MƏQSƏDİMİZ

Mikro, kiçik və orta biznesin inkişafına dəstək göstərməklə ölkə iqtisadiyyatında, məşğulluqda və ixracda KOB subyektlərinin rolunun artırılmasına, rəqabət qabiliyyətinin gücləndirilməsinə nail olmaqdır.

## AGENTLİK 5 ƏSAS İSTİQAMƏT ÜZRƏ DƏSTƏK VƏ XİDMƏTLƏR GÖSTƏRİR:

- **Biznes mühitinin yaxşılaşdırılmasında iştirak**

  -qanunvericiliyin təkmilləşdirilməsi prosesində iştirak edir

  -sorğular, görüşlər və digər vasitələrlə sahibkarların ehtiyaclarını, təklif və problemlərini öyrənir

- **Biznesə dövlət xidmətlərinin yaxşılaşdırılması və KOB maraqlarının müdafiəsi**

  - biznesə göstərilən dövlət xidmətlərinin yaxşılaşdırılması, onlara asan və rahat çıxışın təmin olunmasında yaxından iştirak edir

  - KOB evlərində sahibkarlara vahid məkanda xidmətlərin göstərilməsini təşkil edir

  - sahibkarların qanuni maraqlarını müdafiə edir

- **Bilik və innovasiyalara çıxışın yaxşılaşdırılması**

  - biznes təlimlər (onlayn və oflayn olmaqla) keçirir
  - məsləhət xidmətləri göstərir
  - biznes planın hazırlanmasına dəstək olur
  - beynəlxalq ixtisasartırma proqramında iştiraka dəstək olur